**“Yeni Azərbaycan”.-**2012.-26 dekabr.-№238.-S.7.

# Azərbaycan-Türkiyə münasibətləri uğurla inkişaf edir

## Müxtəlif sahələri əhatə edən iki ölkə əlaqələri strateji önəm daşıyır

Məlum olduğu kimi, Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov dekabrın 21 -də Türkiyə xarici işlər nazirinin müavini Fatih Ceylan ilə görüşüb. Görüşdə iki ölkə arasında münasibətlərin hazırkı vəziyyəti, müxtəlif sahələr üzrə əlaqələrin inkişaf etdirilməsi yolları və regionda cərəyan edən proseslərlə bağlı fikir mübadiləsi aparılıb. Tərəflər, həmçinin, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı aparılan danışıqların son vəziyyətini müzakirə edərək, problemin həllində ATƏT-in Minsk qrupunun fəaliyyətinın canlandırılmasının vacibliyini vurğulayıblar.

Azərbaycan və Türkiyə rəsmilərinin görüşlərinin mütəmadi qaydada keçirilməsi iki ölkə münasibətlərinin əhəmiyyətindən xəbər verir. Bu münasibətlər bir çox sahələri əhatə etməklə strateji önəm daşıyır.

### AZƏRBAYCAN İLƏ TÜRKİYƏ STRATEJİ TƏRƏFDAŞ ÖLKƏLƏRDİR

Azərbaycan-Türkiyə strateji tərəfdaşlığı dərin tarixi köklərə söykənir. Ortaq etnik-mədəni mənşəyə, tarixi keçmişə sahib olan hər iki qardaş xalqı mənəvi tellərlə yanaşı, ümumi milli, siyasi, iqtisadi maraqlar birləşdirir. Beynəlxalq aləmdə bir çox məsələlərdə bir-birinin mövqeyini dəstəkləyən Azərbaycan-Türkiyə siyasi əlaqələri yüksək səviyyədədir. Bunun bariz göstəricisi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı rəsmi Ankaranın və Türkiyə vətəndaşlarının ölkəmizə dəstəyi, Azərbaycan rəhbərliyi və xalqının iradəsi ilə həmrəylik nümayiş etdirməsidir. Xatırladaq ki, Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğalına etiraz əlaməti olaraq 1993-cü ildən etibarən Türkiyə işğalçı ölkə ilə siyasi, iqtisadi əlaqələrə son qoyaraq sərhədləri bağlayıb. Eyni zamanda, Türkiyə dövləti beynəlxalq təşkilatların Azərbaycanın işğala məruz qalması faktını təsdiqləyən və beynəlxalq hüquqa zidd əməlin dayandırılmasını tələb edən qərarlarının qəbul olunmasında ölkəmizi hər zaman dəstəkləyib. Öz növbəsində Azərbaycan da qardaş ölkəyə dəstəyini əsirgəmir, PKK-nın bu ölkədəki terrorçu fəaliyyətini və ermənilərin Türkiyəyə qarşı apardıqları qondarma “soyqırımı” təbliğatını pisləyir. Müxtəlif ölkələrdəki Azərbaycan və Türkiyə diaspor təşkilatları erməni yalanlarına və təbliğatına qarşı birgə mübarizə aparırlar. Beləliklə, bu gün Azərbaycan-Türkiyə strateji əməkdaşlığı bütün dünyada nümunəvi əlaqələr hesab oluna bilər.

### AZƏRBAYCAN-TÜRKİYƏ İQTİSADİ ƏMƏKDAŞLIGI YENİ MƏRHƏLƏDƏ

Azərbaycan və Türkiyə arasında illərdir ki, yüksələn xətlə davam edən iqtisadi əməkdaşlıq hər iki ölkənin regiondakı mövqeyini xeyli möhkəmləndirib. Bu sahədə əməkdaşlıq bütövlükdə Türk dünyası və Avrasiya məkanı üçün faydalıdır. Azərbaycanla Türkiyənin iqtisadi əlaqələrinin mühüm cəhətlərindən biri ondan ibarətdir ki, hər iki ölkə şirkətlərinin qarşılıqlı investisiya yatırımları genişlənməkdədir. Son dövrlərdə Azərbaycan şirkətləri qardaş ölkə iqtisadiyyatında, xüsusən də, enerji sahəsində daha fəal işlər görməkdədir. Belə ki, ARDNŞ-ın Türkiyənin ən nəhəng şirkətlərindən olan “Petkim”ə sərmayə yatırması hər iki ölkə üçün böyük əhəmiyyət kəsb edən bir hadisədir.

Qeyd edək ki, iki ölkənin iqtisadi əlaqələrində enerji sahəsi böyük çəkiyə malikdir.

Azərbaycanla Türkiyə arasında bu vaxtadək çox uğurlu enerji tərəfdaşlığı qurulub. Regionun ən nəhəng və qlobal əhəmiyyətli enerji layihələri “Bakı-Tbilisi-Ceyhan”, “Bakı-Tbilisi-Ərzurum” neft və qaz boru xətlərinin tikintisində də iki ölkənin birgə fəaliyyətinin xüsusi rolu var. Məlum olduğu kimi, Azərbaycan çox geniş təbii qaz ehtiyatlarına sahibdir. Türkiyə tərəfi Azərbaycanın “Şahdəniz-2” qaz yatağının işlənməsinə və bu ölkə ərazisi ilə Avropaya ixrac olunan mavi yanacağın həcminin artırılmasında maraqlıdır. Azərbaycan da təbii qazın Avropaya çıxarılmasında Türkiyə marşrutunu ən optimal yollardan biri hesab edir. Bunun nəticəsi olaraq, 2012-ci il iyun ayının

26-da İstanbulda Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğan tərəfindən Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) üzrə Hökumətlərarası Müqavilə imzalanıb.

Trans-Anadolu Qaz Boru kəmərinin həyata keçirilməsi ilə bağlı imzalanan müqavilə Azərbaycan ilə Türkiyənin iqtisadi sahədə, xüsusən də, enerji, investisiya yatırımı üzrə əməkdaşlığı baxımından tarixi razılaşmadır.

Enerji siyasətinin həyata keçirilməsi üzrə bir çox məsələlərdə ortaq mövqedən çıxış edən Azərbaycanla Türkiyənin əməkdaşlığı, şübhəsiz, TANAP-ın reallaşması istiqamətində müqavilənin imzalanması ilə yeni mərhələyə daxil olub.

Xatırladaq ki, beş il ərzində reallaşması nəzərdə tutulan layihənin 7 milyard ABŞ dollarına başa gələcəyi gözlənilir. Boru kəmərinin diametri 1,4 metr nəzərdə tutulub. Dörd mərhələdə həyata keçiriləcək layihənin ilk mərhələsi 2018-ci ildə başa çatacaq, 2020-ci ildə kəmərin buraxılış qabiliyyəti ildə 16 milyard kubmetrə, 2023-cü ildə 23 milyard kubmetrə, 2026-cı ildə isə 31 milyard kubmetrə çatdırılacaq. İlk dövrdə TANAP kəməri ilə nəql olunacaq 16 milyard kubmetr Azərbaycan qazının 10 milyard kubmetri Avropaya, 6 milyard kubmetri isə Türkiyəyə satılacaq. Avropa üçün nəzərdə tutulan qaz Türkiyə-Bolqarıstan və ya Türkiyə-Yunanıstan sərhədində təhvil veriləcək. Beləliklə, Azərbaycan xarici bazarlara çıxarmağı planlaşdırdığı qazın böyük hissəsini TANAP kəməri vasitəsi ilə ixrac edə biləcək.

Beynəlxalq əhəmiyyətli və bir neçə dövlətin iştirak etdiyi belə nəhəng enerji layihələrinin həyata keçirilməsi, ilk növbədə, regional əməkdaşlığı gücləndirir. Bu baxımdan, Trans-Anadolu Qaz Boru kəmərinin həyata keçirilməsi Azərbaycan ilə Türkiyə arasında bu vaxtadək enerji sahəsində qurulan uğurlu əməkdaşlığın davamıdır. Hazırda, TANAP layihəsində ARDNŞ 80 faiz, Türkiyənin "BO- TAŞ" və TPAO şirkətləri isə birlikdə 20 faiz paya malikdirlər. ARDNŞ ona məxsus olan səhmlərin 29 faizini "Şahdəniz" Konsorsiumundakı tərəfdaşlarına - BP, "Statoil" və "Total" şirkətlərinə təklif edib. Artıq məlum olub ki, BP və "Statoil" bu layihədə hərəyə 12 fa- iz, "Total" şirkəti isə 5 faiz pay əldə etmək niyyətindədir.

TANAP layihəsi Transxəzər qaz kəmərinin gerçəkləşməsi üçün də yeni imkanlar yaradacaq. Qazaxıstan və Türkmənistanın gələcəkdə bu layihəyə qoşulacağı təqdirdə Azərbaycan həm də qaz nəqlində mühüm tranzit ölkəyə çevriləcək. Ümumiyyətlə, TANAP layihəsi ilə Şərq-Qərb enerji dəhlizinin formalaşmasında Azərbaycanın rolu daha da artacaq.

Azərbaycan qazının Avropaya çatdırılmasının daha bir marşrutunu müəyyənləşdirən TANAP layihəsi qitə ölkələrinin enerji maraqlarına cavab verir. Belə ki, Azərbaycan enerji ixracı kəmərlərinin, Avropa ölkələri isə enerji idxalı mənbələrinin şaxələndirilməsində maraqlıdır. Bu layihə ilə Azərbay- canın Avropanın ən yaxın və etibarlı enerji tərəfdaşı olması bir daha təsdiqini tapır. TANAP layihəsi əsasında Avropa üçün nəzərdə tutulan qaz Türkiyə-Bolqarıstan, yaxud Türkiyə-Yunanıstan sərhədi vasitəsilə Avropaya çıxarılacaq.

Bu layihə Azərbaycanın enerji məsələlərinə dair beynəlxalq miqyasda artan rolundan xəbər verir. Eyni zamanda, TANAP layihəsinin gerçəkləşməsi Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətini, eləcə də, etibarlı tərəfdaş kimi nüfuzunu xeyli artıracaq. Xatırladaq ki, Azərbaycan artıq BTC və BTƏ layihələri ilə enerji tərəfdaşı kimi özünə güclü mövqe qazanıb.

Beləliklə, Azərbaycan və Türkiyə dövlətləri və xalqları arasındakı sıx əlaqələr iki ölkənin inkişafına, maraqlarının beynəlxalq miqyasda qorunmasına töhfə verir. İki ölkə münasibətləri həm də regionda sülhün, sabitliyin, təhlükəsizliyin, əməkdaşlıq mühitinin möhkəmlənməsinə şərait yaradır, əməkdaşlıq mühitini genişləndirir. Bir millət, iki dövlət olan Azərbaycan-Türkiyə əməkdaşlığı nümunəvi xarakter daşıyır.

**Hülya MƏMMƏDLİ**